# Məhməd Akif Ərsoy-150




## Allah və vətən aşiqi, böyük şair

### *"Məhməd Akif Ərsoy. Seçmə şeirlər" kitabı təqdim olundu*

Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanasının təşkilatçılığı ilə dekabrın 8-də Türk ədəbiyyatının görkəmli nümayəndəsi Məhmət Akif Ərsoyun anadan olmasının 150 illiyi münasibətilə Azərbaycan dilinə uyğunlaşdırılan "Məhməd Akif Ərsoy. Seçmə şeirlər" kitabının təqdimatı olub.

TÜRKSOY-un nəşri olan kitabın Milli Kitabxanada keçirilən təqdimat mərasimində təşkilatın Baş katibi Sultan Raev, mədəniyyət nazirinin müavini Fərid Cəfərov, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, həmçinin ölkənin bir sıra tanınmış elm və mədəniyyət xadimləri, media nümayəndələri iştirak ediblər.

Kitabın tərtibçisi və redaktoru, giriş yazısının müəllifi, Azərbaycan Yazıçıllar Birliyinin katibi və TÜRKSOY Yazıçılar Birliyinin vitse-prezidenti Səlim Babullaoğlu bizə eksklüziv açıqlamasında bildirib ki, kitabın tərcüməçisi gənc şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü Elşən Mehdidir və kitab Məhməd Akif Ərsoyun yaradıcılığına bu həcmdə müraciətdir, yəni böyük şairin Azərbaycan türkcəsində nəşr olunan ilk kitabdır: "Bilirsiniz ki, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY Daimi Şurasının qəbul etdiyi qərarla 2023-cü ilin "Türk dünyasında Məhmət Akif Ərsoy İli" elan edilib. Kitaba Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri Anarın, habelə TÜRKSOY-un Baş katibi Sultan Rayevin "ön sözləri" var...

Oxucularımız üçün maraqlı olacaq deyə Səlim Babullaoğlunun "Allah və vətən aşiqi böyük şair" giriş yazısını təqdim edirik.